

# Saz-söz bayramı

***Milli Elmlər Akademiyası Folklor İnstitutunun və Azərbaycan Teleradio Şirkətinin birgə keçirdiyi saz-söz bayramında Ələsgər irsinə ehtiram əlaməti olaraq paytaxtımızın elm və incəsənət xadimləri ilə bərabər respublikamızın müxtəlif bölgələrindən dəvət olunmuş el sənətkarları-aşıqlar, eləcə də qonşu İran İslam Respublikasından ziyalılar iştirak edirdilər.***

Tədbiri giriş sözü ilə folklor institutunun direktoru, filologiya elmləri doktoru Hüseyn İsmayılov açaraq Ələsgər irsini ulu Tanrının möcüzəsi adlandırdı.

İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Əfşar Süleymani Ələsgər irsinin yalnız Azərbaycanda deyil, İranda da sevildiyini və tanındığını söylədi.

Borçalı aşıq sənətinin nümayəndəsi, ustad aşıq Əhməd Sadaxlının ifasında saz havası könülləri oxşadı.

Aparıcılar-Muğam teatrının aktrisası Həlimə xanım Məmmədova və Bakı Bələdiyyə teatrının aktyoru Azad Şükürov ustad Ələsgərin gəraylı və qoşmalarını məclis boyu öz bənzərsiz ifaları ilə söyləyərək məclisə ruh və gözəllik bəxş etdilər.

Aşıq Fətulla, Səlim, Xanım Göyçəli, Ədalət, Rəfiqə Tanrıverdiqızı, Aytəkin Əkbərova, folklor institutu aşıq yaradıcılığı birliyinin rəhbəri, filologiya elmləri namizədi Elxan Məmmədlinin elmi işçiləri aşıq Altay Məmmədov, Nemət Qasımov, Fəzail Miskin, əməkdar mədəniyyət işçisi İsfəndiyar Rüstəmovun rəhbərliyi ilə Gədəbəy aşıqları və başqaları ustad yaradıcılığından nümunələr ifa etdilər.

Sidqi Mustafayevin rəhbərlik etdiyi folklor institutunun "İrs" folklor ansamblının solistləri Şəbnəm Tapdıqova, Tahirə Yusifova, Aygün Rəhimova və Mehman Hacıbəylinin çıxışları gecənin bəzəyi oldu.

**F.Mustafayeva**

Mədəni-maarif.-2005.- №4.-S.3.